# Mədəni irsimizin hamisi

**Bəşəriyyətin ilk insan məskənlərindən biri olan Azərbaycan çox qədim tarixi-mədəni irsə malikdir. Dövlətçilik ənənələri eramızdan əvvəl birinci minilliyə gedib çıxan xalqımız daim bu tarixi-mədəni irsi qorumuş, öz mental individuallığını saxlaya bilmişdir. Azərbaycan kimi kiçik ölkə dünyanın istər siyasi tarixinə, istərsə də elm, mədəniyyət və incəsənətinə zaman-zaman öz əvəzsiz töhfələrini vermiş, onu daim zənginləşdirmişdir. Lakin xalqların böyüklüyü onun ərazisinin genişliyi və ya əhalisinin sayı ilə deyil, yetirdiyi tarixi şəxsiyyətlərlə ölçülür. Bu baxımdan Azərbaycan xalqı sözsüz ki, böyük bir xalqdır. Çünki hər zaman torpağımız dünya mədəniyyətində, siyasətində, ədəbiyyatında xüsusi yeri olan bəşəri şəxsiyyətlər yetirmişdir. XX əsrdə isə Azərbaycan torpağının yetirdiyi ən böyük şəxsiyyətlərdən biri və bəlkə də birincisi ulu öndər Heydər Əliyev olmuşdur. Vətənə və xalqa hədsiz sevgi və bağlılığı ilə seçilən Heydər Əliyevin bu ilin may ayında anadan olmasının 100 illiyi tamam olur.**

İkinci minilliyin sonuncu yüzilliyi Azərbaycan üçün çox ağır və keşməkeşli bir dövr idi. XX əsrin əvvəllərində Azərbaycan rus imperiyasının çoxəsrlik əsarətindən qurtularaq müstəqillik əldə etdi. Amma bu müstəqillik də uzun çəkmədi. 1918-ci ilin may ayında yaradılan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aydan sonra ölkəyə qızıl ordunun xaincəsinə basqını ilə süquta uğradı. Və Azərbaycan 1920-ci ildə zor gücü ilə Sovet imperiyasının tərkibinə qatıldı. Həmin dövrdə azərbaycanlılar nəinki keçmiş ittifaqın ərazisində, elə öz doğma yurdunda belə sıxışdırıldı, onlarla ikinci növ insanlar kimi rəftar edildi və bu proses uzun bir müddət, düz 1969-cu ilə qədər davam etdi.

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə Heydər Əlirza oğlu Əliyev təyin edildi və elə bu hadisədən sonra azərbaycanlılara qarşı münasibət köklü surətdə dəyişdi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar sayəsində Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar ölkəsinə çevrildi. Respublikada aparılan genişmiqyaslı quruculuq işləri nəticəsində Azərbaycanda bir neçə il ərzində yeni yaşayış massivləri, məktəb və bağça binaları, sənaye müəssisələri tikildi, yollar salındı.

Mədəni yüksəlişə hər zaman önəm verən Heydər Əliyev bu sahədə də böyük işlər gördü. 1969-1982-ci illərdə ölkəmizdə 1155 kitabxana, 1316 mədəniyyət sarayı, klub, 44 muzey tikilib istifadəyə verilmişdir. Həmin illərdə istər klassik ədəbi irsimizin təbliği və dünya miqyasında təsdiqini tapmasında, istərsə də mədəniyyətin bir çox sahələrinin nəzərəçarpacaq inkişafında Heydər Əliyevin xidmətləri misilsizdir. Klassik Azərbaycan ədəbiyyatı, incəsənəti çoxəsrlik tariximizin məhz Heydər Əliyev dövründə, onun bilavasitə dəstəyi və himayədarlığı ilə bütün dünyada tanınmış kino, teatr, opera-balet, təsviri sənət əsərlərimiz sərhədləri aşmışdır.

Heydər Əliyevin gərgin səyi nəticəsində minlərlə azərbaycanlı gənc elmin və təhsilin dərinliklərinə yiyələnmək üçün SSRİ-nin ən nüfuzlu ali məktəblərinə göndərildi. Bu yolla Azərbaycanımızın elmi və kadr potensialı yüksəldiyi kimi, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği də həyata keçirilirdi. Azərbaycana sovetlər dönəmində rəhbərlik etdiyi 14 il ərzində yüzillər boyu əldə edilməsi mümkün olmayan nailiyyətləri gerçəkləşdirməyi bacaran Heydər Əliyevə bütün bunları həyata keçirməyə onun Vətənə, xalqa, torpağa hədsiz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı kömək etmişdir.

**"Bizim ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdəki hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəni irsi, öz elmi ilə tanınır. Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də, böyük rolu vardır. Ancaq xalq həmişə mədəniyyəti, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir"**, - deyən Heydər Əliyev 70-ci illərdə Azərbaycan paytaxtında və digər şəhər və rayonlarımızda tanınmış mədəniyyət, ədəbiyyat və elm xadimlərinin abidəsinin ucaldılmasına nail olurdu. Böyük öndərin həmin siyasətinin nəticəsi idi ki, o illərdə Nəriman Nərimanovun, İmadəddin Nəsiminin, Cəfər Cabbarlının, Hüseyn Cavidin, Mehdi Hüseynzadənin, Səttar Bəhlulzadənin və başqa görkəmli soydaşlarımızın abidəsi qoyulmuşdu. 1976-cı ildə Şuşanın sosial-iqtisadi inkişafı haqqında qərar qəbul edildəndən sonra bu şəhərdə Xan qızı Natəvanın abidəsi ucaldıldı. Bu illərdə Bakıda və başqa şəhərlərdə çoxlu sayda tarix-diyarşünaslıq muzeyləri, Səməd Vurğunun, Cəfər Cabbarlının, Üzeyir Hacıbəyovun, Bülbülün ev-muzeyləri yaradıldı. Məxsusi bir qərarla repressiya qurbanlarının - əvvəl Mikayıl Müşfiq və Hüseyn Cavidin ev-muzeyləri açıldı.

Sonradan Moskvada fəaliyyət göstərdiyi dövrdə də Heydər Əliyev doğma Azərbaycanını və millətini unutmamış, ölkəmizin inkişafı və çiçəklənməsi, əhalisinin rifah halının daha da yüksəlməsi üçün əlindən gələni əsirgəməmişdi. O dövrdə Azərbaycan mədəniyyətinin də inkişafı heç təsadüfü olmamışdır. Belə ki, keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyərkən, Sovet İttifaqının mədəniyyət üzrə bütün müəssisə və təşkilatlarına rəhbərlik edərkən Heydər Əliyev Azərbaycanın ümumittifaq və ümumdünya mədəni məkanına cəlb olunmasına çalışır, ədəbiyyatımızı, incəsənətimizi geniş təbliğ edir, dünyanı Azərbaycana, Azərbaycanı dünyaya tanıdırdı.

70-80-ci illərdə respublikamızın həyatının bütün sahələrində olduğu kimi, mədəniyyət sferasında da Heydər Əliyev böyük canlanmaya və tarixi uğurlara nail olmuşdu. Tale elə gətirdi ki, Heydər Əliyev o dövrdə başladığı işləri 1993-cü ildə Azərbaycan Prezidenti seçildikdən sonra da uğurla davam etdirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 34 ilin hər ili, hər ayı və hər günü yaddaqalan, xalqın rifahına, inkişafına xidmət edən əməllərlə zəngindir. O dövr ümumilikdə Azərbaycanın və eləcə də mədəniyyətimizin intibah dövrü kimi tarixə qızıl hərflərlə yazılıb. "Hər bir xalq öz mədəniyyətinə görə tanınır", - deyən ulu öndərin bu sahəyə xüsusi diqqəti nəzərəçarpacaq dərəcədə çox idi. Tam qətiyyətlə demək olar ki, Heydər Əliyev Azərbaycanın mədəni həyatında misilsiz yeniliklərin ideoloqu, təşəbbüsçüsü, ilhamvericisi, təşkilatçısı olmuşdur.



"Azərbaycan sənətkarlar diyarıdır" deyirlər. Ancaq təkcə sənətin və sənətkarın olması kifayət deyil. Onların istedad və əməyinə layiqli qiymət verilməsi, inkişafı üçün şərait yaradılması da olduqca vacib bir amildir. Azərbaycan mədəniyyəti, incəsənəti, ədəbiyyatı və bütün bu mənəvi xəzinəni yaradan sənətkarlar Heydər Əliyevin daim diqqət və qayğısından bəhrələnmişlər.

Mədəniyyətimiz bugünkü səviyyəsinə və dünya xalqları tərəfindən tanınaraq sevilməsinə görə özünün himayədarı, qayğıkeşi Heydər Əliyevə minnətdar olmalıdır. Ədəbiyyata, incəsənətə bağlılıq ulu öndərin fitri istedadından, yaradıcı təbiətindən qaynaqlanırdı. Heydər Əliyev Allah vergisi, gözəllik duyumu və fəhmi ilə hər hansı sənət əsərinə ekspert, sənətkarcasına yanaşaraq qiymətləndirməyi bacarırdı. Yeni-yeni istedadların üzə çıxarılmasında, inkişaf etdirilməsində bir dövlət başçısı kimi onun xüsusi əməyi və qayğısı vardı.

Dövlətin ali mükafatlarını və Prezident təqaüdünü alanlar içərisində çoxluğu mədəniyyət və incəsənət xadimləri təşkil edir. Heydər Əliyev tanınmış hər bir sənət adamının yaradıcılığına bələd idi və hər kəsə öz qiymətini verirdi. Dahi lider korifey sənətkarlarımızın dünya miqyasında yubileylərini keçirməklə Azərbaycan mədəniyyətinin zənginliyini, bəşəriliyini bütün dünyaya sübut etdi. Korifeylərimizin heykəllərini ucaltmaqla, ev-muzeylərini yaratmaqla onları xalqın yaddaşına əbədi həkk etdi. **"Bizim gözəl incəsənətimiz, mədəniyyətimiz, bənzərsiz xalq musiqimiz və ondan bəhrələnən, onun əsasında yaranan müasir, peşəkar musiqimiz var"**, - deyən Heydər Əliyev incəsənətə, musiqiyə qiymət verməklə kifayətlənmir, onun dünya arenasına çıxması və inkişafı üçün də əlindən gələni əsirgəmirdi. Onun gördüyü hər bir iş, atdığı hər bir addım həm keçmişimizi yaşadır, həm bu günümüzü işıqlandırır, həm də gələcəyimizi yaradırdı. Ölkənin həyatını, xalqın varlığını əks etdirən hər bir sahədə ulu öndərin silinməz izləri var. Bütün zamanlarda bütün nəsillərin bunu bilməsi və qiymətləndirməsi çox vacibdir.

Xoşbəxtlikdən, bu gün də xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanması, mədəni irsinin yaşadılması və təbliği, eləcə də onun ümumi mədəni səviyyəsinin və dünyagörüşünün yüksəldilməsi ümdə bir məsələ olub daim Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı Fərman və sərəncamlarla ədəbiyyat və incəsənət xadimlərinə keçirilən yubileylər, verilən dövlət mükafatları və adları, ölkəmizin hər yerində yenicə tikilən və əsaslı təmir edilən teatr, muzey, kitabxana binaları, mədəniyyət sarayları, park və bağlar bu sahəyə olan diqqət və qayğının bariz təzahürüdür. Azərbaycanda Heydər Əliyev irsi daim yaşadılacaq.

**Söhrab SƏFİYEV,**
**"Respublika".**

Respublika .- 2023.- 28 mart.- S.5.